Инициатива качества систем убежища
в Восточной Европе и на Южном Кавказе

Asylum Systems Quality Initiative
in Eastern Europe and the Southern Caucasus

# QAÇQIN STATUSUNUN VERİLMƏSİ ÜÇÜN MEYARLAR

BMTQAK, TƏLİM

BAKI, AZƏRBAYCAN

İYUN 2013-CÜ İL

# Vəzifələr

1. 1951-ci il Qaçqınların statusu ilə bağlı Konvensiyaya dair ümumi təsəvvür əldə etmək
2. Qaçqın anlayışının ünsürlərini – qəbuletmə meyarlarını başa düşmək
3. Qəbuletmə meyarlarını ayrı-ayrı faktiki vəziyyətlərdə tətbiq etmək

# 1951-ci Qaçqınların statusu ilə bağlı Konvensiya

- Qəbuletmə – qaçqın anlayışı
- Çıxarma – himayəyə ehtiyacı olmayan və ya bunun üçün tələblərə cavab verməyən şəxslər
- Dayandırma – artıq qaçqın statusuna ehtiyacı olmayan qaçqınlar
- Qaçqınların hüquqları və vəzifələri
- 31-ci maddə – Sığındığı ölkədə qanunsuz olan qaçqınlar
- 32-ci maddə – Çıxarma
- 33-cü maddə – Məcburi geriqaytarmadan imtina

# ... «qaçqın» anlayışı aşağıdakı şəxslərə tətbiq edilməlidir:

* …irqi, dini, milli mənsubiyyət (vətəndaşlıq), hər hansı bir sosial qrupda üzvlük və ya siyasi baxışlarına görə təqib olunmaq üçün əsaslı qorxusu olan, milli mənsub olduğu (vətəndaşı olduğu) ölkədən kənarda olan və həmin ölkədəki müdafiədən yararlana bilməyən, yaxud belə qorxu səbəbindən yararlanmaq istəməyən;

# ... «qaçqın» anlayışı aşağıdakı şəxslərə tətbiq edilməlidir:

Yaxud vətəndaşlığı olmayan və belə hadisələr səbəbindən rəsmi daimi yaşayış yerindən kənarda olan, geri qayıda bilməyən və ya belə qorxu səbəbindən geri qayıtmaq istəməyən....

# Qəbuletmə meyarları

1. **Milli mənsub olduğu (vətəndaşı olduğu) və ya daimi yaşadığı ölkədən kənarda olma**

2. Əsaslı qorxu

3. Təqib olunma

4. Əsaslar – irq, din, vətəndaşlıq, hər hansı bir sosial qrupda üzvlük və ya siyasi baxışlar

# 1. Vətəndaşı olduğu və ya daimi yaşadığı ölkədən kənarda olma

Milli mənsub olduğu ölkə - Vətəndaşı olduğu ölkə

Daimi yaşayış veri – vətəndaşlığı olmayan şəxslər

- Daimi yaşadığı ölkəyə qəbul edilmiş və orada müəyyən olunmuş müddətdə yaşamaq hüququna malikdir
- Müraciət edən şəxsin ora qayıda bilməməsi məsələsi yoxdur
- Şəxsin ilk olaraq təqibdən çəkindiyi ölkədə olmamaq məsələsi yoxdur.

# Sığınacaq üçün müraciəti dəyərləndirmək məqsədilə ərizəçinin milli mənsub olduğu (vətəndaşı olduğu) ölkə nədir?

Ərizəçi Konqo Demokratik Respublikasının (KDR) vətəndaşıdır. 2004-cü ildə, o, Yeni Zelandiyadan şəxslə nigaha daxil olmuşdur. Onun siyasi problemlərinə görə cütlük 2008-ci ildə Nyu Zelandiyaya getmişdir və Nyu Zelandiya vətəndaşlığını almışdır. 2012-ci ildə, o, Bakıya gəlmiş və sığınacaq üçün müraciət etmişdir.

## Sığınacaq üçün müraciəti dəyərləndirmək məqsədilə ərizəçinin milli mənsub olduğu (vətəndaşı olduğu) ölkə nədir?

Ərizəçi, onun icmasının kəskin ayrı-seçkiliyə, qətllərə, evlərinin və məscidlərinin yandırılması hallarına məruz qaldığı Burmadan gəlmiş vətəndaşlığı olmayan Rohingyadır. 2007-ci ildə, o, tələbə vizası ilə Malayziyaya getmişdir. 2012-ci ildə onun tələbə vizasının müddəti başa çatdıqdan sonra, o, Azərbaycana gələrək sığınacaq üçün müraciət etmişdir.

# Qəbuletmə meyarları

1. Milli mənsub olduğu (vətəndaşı olduğu) və ya daimi yaşadığı ölkədən kənarda olma

2. **Əsaslı qorxu**

3. Təqib olunma

4. Əsaslar – irq, din, vətəndaşlıq, hər hansı bir sosial qrupda üzvlük və ya siyasi baxışlar

## 2. Əsaslı qorxu – müraciət edən şəxsin milli mənsub olduğu (vətəndaşı olduğu) və ya daimi yaşadığı ölkəyə qayıtdığı halda onun zərərə məruz qalacağına dair əsaslı ehtimal vardırmı?

- Ərizəçi nədən çəkinir? Bu dövlət və ya qeyri-dövlət subyektidir?
- Onun qorxduğu zərər nədir?
- Ərizəçinin çəkinməsi üçün obyektiv əsas vardırmı?

Nəzərdən keçirin:

- Ərizəçinin təcrübəsini
- Eyni vəziyyətdə olan fərdlərin təcrübəsini
- Dövlət tərəfindən himayəni

# Əsaslı qorxu - Suallar

1. Əvvəllər ərizəçi zərərə məruz qalmışdırmı?
2. Dövlət tərəfindən müdafiə lazımi şəkildədirmi?

3. Mənşə ölkəsi haqqında məlumat (COİ) qorxunun əsaslı olmasını dəyərləndirməkdə sizə necə kömək edir?

4. Nə üçün riskin yoxlanması «əsaslı ehtimaldır» ?

# Əvvəllər ərizəçi zərərə məruz qalmışdırmı?

Əvvəllər zərərə məruz qalma ilə bağlı dəlillər tələb olunmur, lakin əgər əvvəllər zərərə məruz qalmışdırsa, bu gələcəkdə də bunun baş verəcəyinə işarədir.

Nümunələr – Ərizəçi təqib olunan etnik qrupun üzvüdür. O, şəxsən hədəfdə deyildir.

Ərizəçi təqib olunan etnik qrupun üzvüdür və o, irqi zəmində döyülmələrə məruz qalmışdır.

# Dövlət tərəfindən müdafiə lazımi şəkildədirmi?

Əgər dövlət zərərə imkan yaradırsa və ya buna göz yumursa, deməli himayə yoxdur.

Bütün vaxtlarda heç bir dövlət tam himayəyə zəmanət verə bilmir.

Dövlət tərəfindən ərizəçinin himayəyə yönələn kifayət qədər tədbir görülüb-görülməməsinə dair qərar vermək üçün mənşə ölkəsi haqqında məlumatı (COİ) dəyərləndirin – effektiv hüquqi sistem mövcuddurmu və ərizəçinin ona çıxış imkanı vardırmı?

Ərizəçinin himayə üçün nə iş gördüyünü nəzərdən keçirin.

# Dövlət tərəfindən *himayə*

Feliks Yupiter vətəndaşıdır və o, hökumətə müxalif gizli partiyanın lideridir. Yupiter hərbi diktatura tərəfindən idarə olunur. Hökumət bütün partiyaların fəaliyyətinə qadağa qoymuşdur və siyasi opponentləri mühakiməsiz həbs edir. Feliks dinc yolla həyata keçirdiyi hökumət əleyhinə fəaliyyətinə görə 4 dəfə həbs edilmişdir. Feliks üçün dövlət tərəfindən himayə vardırmı?

# Dövlət tərəfindən *himayə*

Klara azlıq təşkil edən dini qrupa mənsubdur. Hökumət onun etiqad etdiyi dinə qadağa qoymur. Əksəriyyət təşkil edən dindən olan qruplar, Klaranın dinindən olanlara, ibadət yerinə gedərkən və oradan qayıdarkən, hücum edir və onları döyürlər. Klara üçün dövlət tərəfindən himayə vardırmı? Bu suala cavab vermək üçün əlavə nəyi bilməyə ehtiyacınız vardır?

# Mənşə ölkəsi haqqında məlumatın (COİ) əhəmiyyəti

…Məhkəmə belə hesab edir ki, 3-cü maddədə nəzərdə tutulmuş müdafiənin mütləq xarakterini nəzərə aldıqda, əmin olmaq lazımdır ki, iştirakçı ölkənin müvafiq orqanları tərəfindən aparılan dəyərləndirmə tam uyğundur və daxili materiallarla, habelə digər etibarlı və obyektiv mənbələrdən, habelə digər iştirakçı və qeyri-iştirakçı ölkələrdən, Birləşmiş Millətlər Təşkilatının agentliklərindən və nüfuzlu qeyri-hökumət təşkilatlarından əldə olunan materiallarla kifayət qədər təsdiqlənir.

Salah Şix Niderlanda qarşı [2007] AİHM (11 yanvar 2007-ci il) bənd 136

# Mənşə ölkəsi haqqında məlumatın (COİ) əhəmiyyəti

- Əsaslı qorxunu dəyərləndirmək üçün mənşə ölkəsi haqqında məlumat (COİ) vacibdir

- Faktorlar:
  - uyğunluq
  - yenilik
  - etibarlılıq
  - dəqiqlik
  - qərəzsizlik və obyektivlik

# Qəbuletmə meyarları

1. Milli mənsub olduğu (vətəndaşı olduğu) və ya daimi yaşadığı ölkədən kənarda olma

2. Əsaslı qorxu

3. **Təqib olunma**

4. Əsaslar – irq, din, vətəndaşlıq, hər hansı bir sosial qrupda üzvlük və ya siyasi baxışlar

# Təqob olunma

- İnsan hüquqlarının pozulması və ya digər ciddi zərər
- Həmişə yox lakin tez-tez təkrarlanır
- Ciddi / sərt zərər olmalıdır

Aşağıdakıları soruşmaqla təqib olunmanı təhlil edin:

1. Hansı zərərdən çəkinir?
2. Risk altında olan maraq hansıdır?
3. Həmin maraq nə qədər təhlükə altındadır?

**Viktor dinc yolla həmkarlar ittifaqının həyata keçirdiyi tədbirlərdə iştirak etdiyinə görə mühakimə olmadan dörd dəfə həbs edilmişdir. O, hər dəfə elektrik cərəyanı buraxan avadanlıqla işgəncələrə məruz qalmışdır.**

1. Hansı zərərdən çəkinir?

2. Hansı maraqlar / insan hüquqları risk altındadır?

3. Həmin maraqlar / insan hüquqları nə qədər təhlükə altındadır?

Bu, təqib olunmadır?

# Təqib = təqib olduqda

- Qanunvericilikdə təqibetmə xüsusiyyətləri olanda
  Nümunə – Qanun müsəlman dinini qadağan edir.

- Qanunvericiliyin tətbiqində təqibetmə xüsusiyyətləri olanda

Nümunə - Qanunvericilik oğurluğu qadağan edir. Alan etnik qrupundan olan şəxslərə həmişə 10 il həbs cəzası verilir; qalanlar isə cərimə olunur.

# Təqib = təqib olduqda

Ayrı-seçkilik adətən təqibetməyə bərabər olmur, lakin ümumi götürdükdə ardıcıl ayrı-seçkiliyin davamlı şəkildə davam etməsi təqibetmə ilə eyni ola bilər.

# Qəbuletmə meyarları

1. Milli mənsub olduğu (vətəndaşı olduğu) və ya daimi yaşadığı ölkədən kənarda olma

2. Əsaslı qorxu

3. Təqib olunma

4. **Əsaslar – irq, din, vətəndaşlıq, hər hansı bir sosial qrupda üzvlük və ya siyasi baxışlar**

# Əsaslar – Əlaqə tələbi

Təqibetmənin səbəbi Konvensiyadakı beş əsasdan biri və ya daha çoxu olmalıdır:

-İrq

-Din

-Milli mənsubiyyət

-Hər hansı bir sosial qrupda üzvlük

-Siyasi baxışlar

# Konvensiyadakı əsaslar

**İrq** – BMT QAK-ın Dərsliyi - irq «ümumi istifadədə «irqlər» kimi istinad olunan bütün növ etnik qrupları əhatə etmək üçün daha geniş mənada başa düşülməlidir».

**Din** – Şəxs ateist və qeyri-ateist inama malik ola bilər. Bu mənada, din dedikdə, yalnız müəyyən edilmiş təşkilatlanmış dinləri deyil, eyni zamanda hər hansı inam sistemi nəzərdə tutulur. Fərdin öz seçdiyi inama uyğun yaşamaq hüququ vardır. Bura, həmçinin, öz inamını dəyişmək imkanı da daxildir.

# Konvensiyadakı əsaslar

**Milli mənsubiyyət (vətəndaşlıq)** – yalnız vətəndaşlıqdan daha geniş mənanı verir. Etnik və ya dil qrupu da nəzərdə tutula bilər.

**Siyasi baxışlar** – Hökumətdə olanlardan fərqli baxışlara malik olma və bu baxışlar hökumət orqanları tərəfindən qəbul edilmir.

# Konvensiyadakı əsaslar

**Hər hansı bir sosial qrupda üzvlük** – Təqib olunma riskindən başqa ümumi xüsusiyyətə malik olan və ya cəmiyyət tərəfindən qrup kimi qəbul edilən şəxslər qrupu. Bu xüsusiyyət çox vaxtı təbii, dəyişməz olur və ya şəxsiyyət, vicdan və ya kiminsə insan hüquqlarından istifadəsi üçün digər şəkildə əsas olur.

## Ərizəçi, cinsi azlıqlara aid (homoseksual) olması səbəbindən öz ölkəsində təqibə məruz qalacağından çəkindiyini bildirir.

Cinsi azlıqlara aid olan şəxslər (homoseksuallar), ümumi xüsusiyyətə malik olma (cinsi xüsusiyyət anadangəlmə və ya dəyişməz və ya insandan onu dəyişməyin tələb edilməməli olduğu qədər insan ləyaqəti üçün əsas kimi nəzərdən keçirilir) və bəzi cəmiyyətlərdə cinsi azlıqların (homoseksualların) bir qrup kimi qəbul edilməsi səbəbindən sosial qrup hesab edilir.

# Xüsusi mülahizələr

- Ləngimə
- Yerlə bağlı tələblər
- Daxili Yerdəyişmə Alternativi (IFA)

# Ləngimə

- Öz ölkəsini tərk etməkdə ləngimə
- Sığınacaq üçün müraciət etməkdə ləngimə

Himayə üçün müraciətin qarşısını almamalıdır.

Ləngimənin səbəbləri nəzərdən keçirilməlidir.

# *Yerlə bağlı* Tələblər

Milli mənsub olduğu (vətəndaşı olduğu) ölkədən və əvvəlki daimi yaşadığı ölkədən kənarda olmalıdır, LAKİN bu ölkəni tərk edərkən təqib olunma ilə bağlı əsaslı qorxu olmaya da bilər.

*Yerlə bağlı* tələblər iki yolla baş verir:

1. Ərizəçi ölkəni tərk etdikdən sonra onu qayıtmaqdan çəkindirən nə isə baş verir;
2. Ərizəçi ölkəni tərk etdikdən sonra, o, onu qayıtmaqdan çəkindirən nə isə edir.

# Daxili *yerdəyişmə* alternativi

Ərizəçinin Konvensiyadakı səbəbə görə ölkənin bir hissəsində təqib edilmə ilə bağlı əsaslandırılmış qorxusunun olduğu aşkarlanır.

Şəxsin ölkədə gedə biləcəyi başqa yer vardırmı?

Qərar qəbul edən şəxs belə yeri müəyyən etməli və onun mümkünlüyünü göstərməlidir. Buna görə də, mənşə ölkəsi haqqında məlumat (COİ) əsasdır.

# Daxili *yerdəyişmə* alternativi ilə bağlı təhlil

Uyğunluğun təhlil edilməsi

- Daxili yerdəyişmə alternativi ərizəçi üçün praktik, təhlükəsizlik və hüquqi baxımdan əlçatandırmı?
- Təqim edən kimdir? Əgər dövlətdirsə, bu halda çox güman ki, daxili yerdəyişmə alternativi yoxdur. Əgər dövlət iştirakçı deyildirsə, təqib edən tərəfin ərizəçini daxili yerdəyişmə alternativində də izləmək ehtimalı vardırmı?
- Ərizəçi yerini dəyişdikdən sonra təqib edildiyi halda hər hansı bir riskə və ya  digər ciddi zərərə məruz qalacaqdırmı ?

Əsaslı olma ilə bağlı təhlil

- Ərizəçi artıq çətinlik olmadan orada nisbətən normal həyat sürə biləcəkmi?